AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA



*Gün gələcək*
*Azərbaycan dünyaya günəş kimi doğacaq.*

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

6 MART 2022-ci il BAZAR | № 51 (7233) | GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET | WWW.RESPUBLIKA-NEWS.AZ



# Yeni reallıqlar yeni informasiya strategiyası formalaşdırır

*"Müharibədəki Qələbə ölkəmizə, xalqımıza olan hörməti daha da artırdı. Sadəcə olaraq, fəallıq, düzgün informasiya kanallarının müəyyən edilməsi, müxtəlif istifadəçilərin kateqoriyalarına uyğun olan informasiya həcminin ötürülməsi - bütün bunlar, əlbəttə ki, böyük səriştə tələb edir, məharət tələb edir".*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev 44 günlük Vətən müharibəsində Ermənistan üzərində inamlı Zəfərdən, 30 ilə yaxın müddət ərzində erməni faşistlərinin işğalı altında qalmış ərazilərimizin azad edilməsindən sonra dəfələrlə vurğulayırdı ki, müharibə döyüş meydanında bitdi, ancaq informasiya müharibəsi davam edir.

Bu fikir heç də təsadüfi bəyan olunmadı, çünki tarixi Zəfərimizdən sonra ötən dövr də göstərir ki, bu məsələdə maksimum diqqətli olmaq çox vacibdir.

Sirr deyil ki, Azərbaycanın erməni faşizmi üzərində qələbə çalması, işğal olunmuş əraziləri azad etməsi dünyadakı bir sıra ermənipərəst dairələrin anti-Azərbaycan, bütövlükdə bölgəmizlə bağlı sözün əsl mənasında yaramaz planlarını da tamamilə pozmuş oldu. Azərbaycanın bədxahlarını hər zaman ciddi narahat edən xalqımızın milli, dövlət, Qarabağ, Silahlı Qüvvələr məsələlərində yumruq kimi birləşə bilməsi olub. İkinci Qarabağ müharibəsi zamanı Azərbaycan xalqının Müzəffər Ali Baş Komandanın ətrafında necə birləşdiyini, xalq-iqtidar birliyinin sarsılmazlığını bütün dünya gördü.

(davamı 9-cu səhifədə)

# Yeni reallıqlar yeni informasiya strategiyası formalaşdırır

(əvvəli 1-ci səhifədə)

Prezident İlham Əliyev Vətən müharibəsində və postmünaqişə dövründə müsahibələri və çıxışları ilə Azərbaycanın ədalətli mövqeyini ifadə etməklə yanaşı, həm də onu nümayiş etdirdi ki, ölkəmiz informasiya müharibəsində də qalib tərəf kimi dəyərləndirilməlidir. Tarixi Zəfərimizdən sonra Cənubi Qafqaz regionunda yaranmış yeni reallıqlar həm də yeni informasiya strategiyasının həyata keçirilməsini tələb edirdi. Bu strategiyanın əsas hədəfi ölkəmiz haqqında uzun illər ərzində dünya erməniliyi tərəfindən formalaşdırılmış yalanların ifşası, Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması və informasiya cəbhəsində qələbələrin əldə edilməsidir.

Cənab İlham Əliyev informasiya müharibəsində qələbə seriyasının başlanğıcını məhz Vətən müharibəsi dövründə qoymuş oldu. 44 günlük müharibədə dünyanın 26 aparıcı mediasına, o cümlədən 18 televiziya kanalına, 5 informasiya agentliyinə və 3 mötəbər qəzetə müsahibələri, həmçinin ayrı-ayrı çıxışları və bəyanatları ilə dövlət başçımız təqribən 30 il ərzində ermənilərin Azərbaycan ətrafındakı yaratmağa çalışdıqları informasiya blokadasını darmadağın etdi. Nəticədə, Azərbaycan reallıqlarını və həqiqətlərini bütün dünya eşitdi. Məhz bunun sayəsində döyüş meydanında düşmənə qalib gələn, torpaqlarını azad edən Azərbaycan informasiya meydanında da dikte edən tərəfdir. Beləliklə, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev informasiya müharibəsində də öz əvəzsiz liderliyini böyük inamla davam etdirməkdədir.

Dövlət başçımızın 2021-ci il fevralın 26-da yerli və xarici media nümayəndələri üçün keçirilən mətbuat konfransında 4 saat ərzində 35 media qurumunun 50-dək sualını cavablandırması hamımızın yaxşı yadındadır. Hər bir suala incəliyinə qədər cavab verən, tutarlı arqumentlər göstərən dövlət başçısı bununla əvəzolunmaz lider olduğunu əyani surətdə nümayiş etdirdi.

44 gün davam etmiş və Azərbaycanın tarixi Zəfəri ilə başa çatmış Vətən müharibəsindən sonra Prezident İlham Əliyev dünyanın tanınmış media qurumlarına verdiyi bütün müsahibələrində, keçirdiyi dəyirmi masalarda istər xarici, istərsə də yerli media nümayəndələrinin müharibəyə, münaqişəyə, eləcə də postmünaqişə dövründə atılacaq addımlara aid bütün sualları hərtərəfli cavablandırdı və bununla Azərbaycanın mövqeyini və regionun gələcəyini necə gördüyünü dəfələrlə, açıq və aydın şəkildə bəyan etmiş oldu.

Bəli, informasiya cəbhəsində aparılan mübarizə davam edir. Cənab Prezident bütün müzakirələrdə müxtəlif ölkələrin sabiq prezidentləri, baş nazirləri, yüksək vəzifəli şəxslər, tanınmış ictimai-siyasi xadimlər, diplomatlar, politoloqların suallarını ətraflı şəkildə cavablandırır, Azərbaycanın haqlı tərəf olduğunu yüksək diplomatik məharətlə və dəmir məntiqə söykənərək təqdim edir.

Şübhəsiz, bütün bunlar cənab Prezidentin davam edən informasiya müharibəsində formalaşdırdığı yeni strategiyanın əsasını təşkil edir. Dövlət başçısının nitqlərinə, müzakirələrdə iştirakına, səsləndirdiyi fikirlərə dünya mediasında, siyasi dairələrdə olan maraq onu göstərir ki, yeni informasiya strategiyası ölkədə, regionda və dünyada baş verən mühüm proseslərə dair Azərbaycanın mövqeyini və müvafiq mesajları daha effektiv şəkildə beynəlxalq ictimaiyyətə çatdırmaq imkanı verir. Cənab İlham Əliyev heç vaxt heç bir sualdan yayınmır, bütün məsələlərə mahiyyəti üzrə aydınlıq gətirir, onlara sistemli yanaşma nümayiş etdirir, məntiqlə və əhatəli şəkildə təhlil edir.

Diqqətçəkən məqamlardan biri Prezident İlham Əliyevin müzakirə və debatlarda, mətbuat konfranslarında ən mürəkkəb suallara açıqlığı və onları peşəkar formada cavablandırmaq bacarığı, yüksək məntiqi, intellekti, diplomatik məharəti, dünyada, regionumuzda və ölkəmizdə baş verən hadisələr və cərəyan edən proseslər barədə tam məlumatlılığı, elmi-politoloji biliyinin dərinliyidir.

Əldə olunan nəticələrə və mövcud mənzərəyə baxdıqda əminliklə deyə bilərik ki, istər müharibə dövründə, istərsə də postkonflikt mərhələdə informasiya müstəvisində cənab İlham Əliyevin inamlı liderliyi ilə aparılan savaş Ermənistan və erməni lobbisinin, Azərbaycanı istəməyən xarici qüvvələrin tərk-silah edilməsində mühüm rol oynayır.

Tam əminliklə deyə bilərik ki, bütün bunlar müharibə dövründə Ermənistan-Azərbaycan münaqişəsi, Vətən müharibəsi haqqında həqiqətlər barədə dünya ictimaiyyətini ətraflı məlumatlandırmağa şərait yaratdığı kimi, postkonflikt dövrdə də regionun gələcəyi ilə bağlı planlar, işğaldan azad olunmuş ərazilərdə yenidənqurma və bərpa işləri, ermənilərin vandallığı, bunun mənəvi və hüquqi nəticələri barədə dünyaya dolğun məlumat verməyə şərait yaradır.

**Emin QASIMOV,**
**"Respublika".**